

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 75 (20.976)

25 aprel 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Aprelin 24-də Çex Respublikasının paytaxtı Praqa şəhərində Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının növbəti Sammiti işə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak etmişdir.

Sammit Praqa qəsrində dövlət və hökumət başçılarının rəsmi qarşılanma mərasimi ilə başladı.

İştirakçı ölkələrin dövlət bayraqlarının dalğalandığı meydanda dövlət və hökumət başçılarının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çexiya Prezidenti Miloş Zeman Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Sonra dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Daha sonra Sammitin birinci iclası keçirildi.

Prezident İlham Əliyev iclasda iştirak etdi.

* * *

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Praqada Moldova Respublikasının Prezidenti Nikolae Timofti ilə görüşmüşdür.

* * *

Aprelin 24-də Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin görüşü olmuşdur.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Praqada Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili ilə görüşmüşdür.

## Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə tədbir keçirilib

*Aprelin 24-də Yeni Azərbaycan Partiyası (YAP) Sədərək Rayon Təşkilatı rayonun Sədərək kəndində görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə tədbir keçirmişdir. Tədbiri giriş sözü ilə YAP Sədərək Rayon Təşkilatının sədri Arif Qasımov açaraq məruzə ilə çıxış etmişdir.*

Bildirilmişdir ki, akademik Zərifə xanım Əliyevanın adı Azərbaycanda böyük fəxrlə, sonsuz qürur hissilə çəkilir. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşına sədaqət, həkimlik peşəsinin müqəddəsliyi onun adı ilə əbədiləşmişdir. O, tibb elmimizin zirvəsində parlayan əbədiyyət Günəşidir. Zərifə xanım XX əsr Azərbaycan səhiyyəsinin inkişafında mühüm rol oynamaqla böyük elmi professional fəaliyyət yolu keçmiş, 1959-cu ildə namizədlik, 1976-cı ildə isə Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyaları müdafiə etmişdir.

Qeyd olunmuşdur ki, Zərifə xanım Əliyeva ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq, xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdır. Zərifə xanımın başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, onun optimal müalicə üsullarını tapmaq, münasib profilaktik tədbirləri vaxtında və yetərincə həyata keçirməkdən ibarət idi. El məhəbbətindən, insanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət, fiziki və zehni gərginlik, uzunmüddətli vaxt tələb edirdi. Zərifə xanım Azərbaycanın bütün rayonlarını kəndbəkənd gəzərək traxoma ocaqlarını aşkar etdi, yerindəcə geniş profilaktik tədbirləri, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirdi. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstəliyin qarşısının alınmasında başlıca rol oynadı.

Sonra partiya üzvlərindən Vüsalə Əliyeva, Nəriman Seyidov, Səadətbəyim Dadaşova və Elçin Əhmədov çıxış edərək akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinin müxtəlif məqamlarından söhbət açmışlar.

✍ **Muxtar MƏMMƏDOV**

## Müsabiqənin test mərhələsinə yekun vurulub

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada VI-VII təsnifata uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün bu il mart ayının 7-də elan olunan müsabiqənin test mərhələsinə yekun vurulub. Qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında təşkil edilən imtahanların son tarixi aprelin 24-ü olub. İmtahan informasiya təhlükəsizliyinə riayət edilmək şərti ilə xüsusi proqram təminatı vasitəsilə təşkil edilib.

Xatırladaq ki, ilk test imtahanları aprelin 17-də keçirilib. 39 dövlət orqanından 366 vakant vəzifə üzrə elan olunan müsabiqədə iştirak etmək üçün 304 namizəd komissiyaya sənəd təqdim edib, 283 nəfər test imtahanlarına qatılıb. Test mərhələsində namizədlər qanunvericilik üzrə 40, məntiqi təfəkkürün yoxlanması üzrə 30, dünyagörüşün yoxlanması üzrə 15, informasiya texnologiyaları sahəsində biliklərin yoxlanması üzrə 15 sual olmaqla, 100 suala cavab veriblər.

✍ **Səbuhi HÜSEYNOV**

## Əmək yarmarkaları məşğulluq tədbirlərinin çevik formasıdır

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə əmək yarmarkalarının keçirilməsi bəndinin icrasına müvafiq olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə 2014-cü ilin 1-11 aprel tarixlərində Naxçıvan şəhərində və rayon mərkəzlərində əmək yarmarkaları keçirilmişdir.

Məşğulluq xidməti orqanları müəssisə və təşkilatlardan boş iş yerləri haqqında topladıqları məlumatları əmək yarmarkalarında işaxtaranlara təqdim etmişlər. Həmin məşğulluq tədbirlərində sosial müdafiəyə ehtiyacı olan şəxslərin kvota yerlərinə göndərilməsi, işaxtaranların əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kurslarına cəlb edilməsi diqqət mərkəzində olmuşdur.

Əmək yarmarkalarında işaxtaranlar onlar üçün yaradılmış mövcud imkanlardan səmərəli istifadə edərək öz peşə və ixtisaslarına uyğun işlə təmin olunmaq, eyni zamanda işəgötürənlər işaxtaranlarla qarşılıqlı ünsiyyətdə olduqlarından ixtisaslı, təcrübəli kadr seçmək imkanı əldə etmişlər.

Yarmarkalara, ümumilikdə, 165 təşkilatdan 1643 boş iş yeri çıxarılmışdı. Keçirilən əmək yarmarkalarında 349 nəfər peşə və ixtisasına uyğun işlə təmin olunmuş, 2 nəfər peşə hazırlığına cəlb edilmiş, 14 nəfər kvota yerlərinə göndərilmişdir. Gənclərin və qadınların işlə təmin olunması diqqət mərkəzində olmuşdur. Belə ki, işlə təmin olunanların 96 nəfərini gənclər, 38 nəfərini isə qadınlar təşkil etmişdir.

Əhalinin işlə təmin olunmasına geniş imkanlar yaradan çevik məşğulluq tədbirlərinin davamlı olaraq həyata keçirilməsi insanların sosial rifahını daha da yaxşılaşdırır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## "Cahan" Alış-Veriş Mərkəzi üçün inşa olunan yeni korpusda və "Əyləncə adası"nda son tamamlama işləri görülür

*"Cahan Holdinq" Şirkətlər İttifaqı ərzaq məhsulları, tikinti materialları istehsal edən zavod və fabriklərlə yanaşı, yeni xidmət sahələrinin yaradılmasına da nail olmuş, 2011-ci ilin oktyabr ayında istifadəyə verilən ticarət mərkəzində alıcılara nümunəvi xidmət göstərilməsi üçün hərtərəfli şərait yaradılmışdır. Ümumi sahəsi 10 min kvadratmetr olan ticarət mərkəzində Almaniya, Yaponiya, Cənubi Koreya və Türkiyə istehsalı olan texniki avadanlıqlar quraşdırılmışdır.*



Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan ticarət mərkəzi müasir memarlıq üslubunda inşa olunmuşdur. Binanın birinci mərtəbəsində məişət avadanlıqlarının, gündəlik tələbat mallarının, santexnika avadanlıqlarının və uşaqlar üçün əyləncə qurğularının, ikinci mərtəbəsində isə xalçaçılıq və mebel məmulatlarının, elektrotexnika avadanlıqlarının, məişət cihazlarının satışı bölmələri fəaliyyət göstərir. Binada eskalator və lift sistemi quraşdırılmış, iş otaqları istifadəyə verilmişdir. Zirzəmi qatından isə böyük anbar kimi istifadə olunur. Burada quraşdırılan videonəzarət sistemləri ilə ərazini və alış-veriş obyektlərini müntəzəm müşahidə etmək mümkündür.

İnşaat materiallarının satışı binasında bütün növ tikinti və təsərrüfat mallarının satışı təşkil olunmuş, anbar istifadəyə verilmişdir. Açıq satış yerində isə, əsasən, topdan və pərakəndə satış həyata keçirilir. Burada müxtəlif ağır tikinti mallarının satışı təşkil olunmuşdur. Ticarət mərkəzinin həyətində səliqə-sahman yaradılmış, fəvvarə quraşdırılmış, kafe istifadəyə verilmişdir.

Ticarət mərkəzində 21 bölmədə 12 min 300 çeşiddə – bir binanın inşa olunmasından ev əşyaları ilə təminatınadək – mal və materialların topdan və pərakəndə satışı həyata keçirilir, mallar orta bazar qiymətlərindən 10-20 faiz ucuz satılır. Burada muxtar respublikada istehsal olunan məhsullarla yanaşı, Amerika Birləşmiş Ştatları, Almaniya, Türkiyə, İtaliya, Yaponiya və Cənubi Koreya istehsalı olan məhsullar da satılır.

Müasir görkəmi və memarlıq üslubu ilə seçilən ticarət mərkəzi əhalinin məşğulluğunun təmin olunmasına da əlverişli şərait yaratmışdır. Hazırda "Cahan" AVM MMC-də 160 nəfər çalışır. Onu da qeyd edək ki, dünya təcrübəsindən istifadə etməklə nümunəvi xidmət göstərilən "Cahan" AVM MMC-nin maddi-texniki bazası ildən-ilə daha da möhkəmləndirilir. Bu istiqamətdə işlər uğurla davam etdirilmiş, 2013-cü ilin mart ayında zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət yeni korpusun inşasına başlanılmışdır. İnşaat işlərinin vaxtında və keyfiyyətli aparılması üçün obyektə "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin təcrübəli inşaatçıları və müasir maşın-mexanizmləri cəlb olunmuşdur. Yeni korpusda dəmir konstruksiya və hörgü işləri vaxtında başa çatdırılmış, dam örtüyü vurulmuş, bina izolyasiya qatı ilə təmin olunmuşdur. Müasir memarlıq üslubunda inşa olunmuş ticarət mərkəzində binadaxili işlər başa çatdırılmış, ayrı-ayrı mərtəbələrdə fəaliyyət göstərən ticarət bölmələrini hazır məhsullarla təmin etmək və ticarət mərkəzinin xidmətindən istifadə edən müştərilərin rahatlığı üçün Türkiyənin "Sərt dəmir asansör" LTD şirkətinin istehsalı olan 3 tonluq yük lifti və üçgözlü, panoramlı sərnişin lifti quraşdırılmışdır.



Həmçinin ayrı-ayrı bölmələrdə satışa çıxarılan müxtəlif çeşiddə malların reklamını və ticarət mərkəzinin xidmətindən istifadə edən vətəndaşların məlumatlandırılmasını təmin etmək məqsədilə ticarət kompleksində ayrı-ayrı yerlərdə monitorlar quraşdırılır.

Məlumat üçün qeyd edək ki, layihəyə uyğun olaraq, yeni korpusun zirzəmi qatı mal və materialların ehtiyat anbarı, birinci mərtəbə uşaq, böyük və qadın geyim mağazaları, uşaq oyun sahəsi, həmçinin kafeteriya, ikinci mərtəbə isə çilçıraq və yataq, mətbəx, ofis, yumşaq mebel dəstlərinin, tül pərdə, yataq örtüyü, hamam dəstləri, xalça və yer döşəmələri, ev aksesuarlarının satışı üçün nəzərdə tutulmuşdur. Yeni korpusun ətrafında 48 min kvadratmetr ərazidə abadlıq işləri aparılır, gəzinti yolları, yürüş yolları, uşaqlar üçün amfiteatr, hovuz inşa olunur, karusel və fəvvarələr quraşdırılır, sakinlərin və şəhərimizə gələn qonaqların istirahəti üçün əlverişli şərait yaradılır. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan yeni korpus və "Əyləncə adası"nda nümunəvi xidmət göstərilməsi ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasına da əlverişli şərait yaradılacaq, 120 nəfər daimi işlə təmin olunacaqdır.

✍ **Kərəm HƏSƏNOV**




# İqtisadi fəallığın stimullaşdırılmasında banklar mühüm rol oynayır

## *Cari ilin birinci rübündə bank və digər kredit təşkilatları tərəfindən 9,4 milyon manat kredit verilib*

***Müasir bazar iqtisadiyyatı şəraitində muxtar respublikamızda bankların verdiyi kreditlər nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinin maliyyələşdirilməsi məhz bank sektorunun iqtisadiyyatın inkişafında rolunun əsas göstəricisidir. Banklarımız tərəfindən həyata keçirilən səmərəli kreditləşmə prosesi müxtəlif istehsal və xidmət sahələrinin yaradılması, bu sahələrdə fəaliyyətin genişləndirilməsi, nəticə etibarilə, əhali tələbatlarının ödənilməsi ilə müşahidə olunur. Muxtar respublikamızda kreditləşmə iqtisadiyyatın müxtəlif sahələri üzrə aparılır. Bu sahələr içərisində kənd təsərrüfatı mühüm yerlərdən birini tutur. Muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən hesab olunan kənd təsərrüfatının yüksək sürətli inkişafına nail olmaq üçün bu sahədə səmərəli kreditləşmənin aparılması vacib şərtlərdən biridir. Bu gün banklar və kredit təşkilatları tərəfindən kənd təsərrüfatı sahələrinə verilən güzəştli kreditlər kənd təsərrüfatı məhsulları istehsalının artmasına, istehsal olunmuş məhsulların ixracına, məşğulluğun artırılmasına, aqrar sektorun və onunla əlaqədar olan digər sahələrin inkişafına birbaşa təsir göstərir.***

Eyni zamanda özəl sektorun inkişafı və sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi məqsədilə bank və kredit təşkilatları tərəfindən verilən kreditlərin coğrafiyasının tələbata uyğun genişləndirilməsi, onların çoxsahəli və səmərəli olmasının təmin edilməsi, kreditlərin verilməsində daha münasib faiz dərəcələrinin tətbiq edilməsi də qarşıya qoyulan ən önəmli vəzifələrdəndir.

Muxtar respublikada fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 aprel 2014-cü il tarixə muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşları 84,4 milyon, o cümlədən qısamüddətli kredit qoyuluşu 13,4 milyon manat, uzunmüddətli kredit qoyuluşu isə 71 milyon manat olmuşdur.

Kredit qoyuluşu, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, fərdi təsərrüfatların inkişafına yönəldilmişdir ki, bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması və yeni iş yerlərinin yaranmasında mühüm rol oynamışdır.

Səmərəli kreditləşmə mexanizmi yeni istehsal və xidmət sahələrinin yaradılmasına, iqtisadi aktivliyin təmin olunmasına təsir göstərən əsas amillərdən biri olmuşdur. Bank və digər kredit təşkilatları tərəfindən 2014-cü ilin birinci rübü ərzində 9,4 milyon manat kredit verilmişdir ki, bunun da 5,3 milyon manatını uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditin 3,5 milyon manatı kənd təsərrüfatının, o cümlədən 930 min manatı bitkiçiliyin, kartofçuluğun və bostan-tərəvəz məhsulları istehsalının, 85,8 min manatı isə arıçılıq və quşçuluğun payına düşür. Ümumilikdə, verilmiş kreditlərin 318 min manatı sənaye, 300 min manatı tikinti, 1 milyon manatı kommersiya, 14,7 min manatı nəqliyyat, 4,3 milyon manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditləri və digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilmişdir.

2014-cü ilin birinci rübündə muxtar respublikanın rayon və kənd yerlərində yaşayan əhalinin bank xidmətlərinə olan tələbatlarının ödənilməsi məqsədilə "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında yeni filialları fəaliyyətə başlamışdır. Bundan əlavə, cari ilin yanvar ayından etibarən "Naxçıvanbank" ASC tərəfindən kənd təsərrüfatı və biznes üçün verilən kreditlərin faiz dərəcələri 15 faizədək endirilmiş, eyni zamanda kiçikhəcmli kreditlərin verilmə prosedurları sadələşdirilmişdir.

Banklar tərəfindən 2014-cü ilin 1 aprel tarixinə 2194 hüquqi, 23 min 871 fiziki şəxs olmaqla, 26 min 65 müştəriyə xidmət göstərilmişdir. Xidmət olunan hesabların 23 min 158-i işlək hesab olmuşdur ki, onların 1273-ü hüquqi, 21 min 885-i fiziki şəxsdir.

Cari ilin ilk üç ayında 46 hüquqi, 5663 fiziki şəxs olmaqla, 5709 müştəriyə yeni bank hesabı açılmışdır. Açılmış bank hesablarının 5654-ü işlək hesabdır.

2014-cü ilin ilk 3 ayı ərzində Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 84 milyon manat nağd pul dövriyyəyə buraxılmışdır.

Elektron ödəniş sistemlərindən istifadənin genişləndirilməsi, nağdsız hesablaşmaların həcminin artırılması istiqamətində də bir sıra işlər görülmüş, iqtisadi sahədə fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin həcminin azaldılması, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların və bankomatların quraşdırılması daim diqqət mərkəzində saxlanılır. Qeyd olunan dövrdə POS-terminalların quraşdırılması davam etdirilmiş, 1 aprel 2014-cü il tarixə sayı 396 ədəd olmaqla, keçən ilin müvafiq dövrü ilə müqayisədə 233 ədəd artmışdır.

Görülmüş işlər sayəsində muxtar respublika sakinləri ödəniş kartları vasitəsilə vergi və rüsumları, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarını, mobil və stasionar rabitə üzrə xərcləri, internet ödənişləri və gömrük rüsumlarını elektron ödəniş formasında apara bilərlər. 2014-cü ilin ilk üç ayı ərzində "Naxçıvanqaz" İstehsalat Birliyində banklar tərəfindən 39 ədəd POS-terminal quraşdırılmışdır. Eyni zamanda bu xidmətləri göstərən "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində də quraşdırılmış 11 ədəd POS-terminal vasitəsilə sakinlər kommunal xərclərin ödənişini həyata keçirə bilərlər. Cari ilin birinci rübündə POS-terminallarla aparılan əməliyyatların həcmi 1 milyon 171 min manat təşkil etmişdir.

"Naxçıvanqaz" İstehsalat Birliyi və Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən vətəndaşların kommunal ödənişlərini kartdan istifadə etməklə internet üzərindən həyata keçirmələri təmin edilmişdir.

Bütün bunlarla yanaşı, 2014-cü ilin ilk üç ayı ərzində elektron ödəniş alətlərinin və nağdsız hesablaşmaların həcminin artırılması məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən mütəmadi olaraq maarifləndirmə işləri də aparılmışdır.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının iştirakı ilə ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılmasının monitorinqi keçirilmiş, nağdsız əməliyyat aparmayan mal satan və xidmət göstərən sahibkarlarla xüsusi maarifləndirici görüşlər təşkil edilmiş, onlara müvafiq tövsiyələr verilmişdir.

Eyni zamanda Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının birgə iştirakı ilə muxtar respublikanın təhsil müəssisələrində, bir sıra nazirlik və digər dövlət orqanlarında çalışan ödəniş kartı istifadəçiləri ilə görüşlər keçirilmiş, onlara ödəniş kartlarından istifadənin üstünlükləri barədə məlumatlar verilmiş və nağdsız ödənişlərin iqtisadiyyatın inkişafında nə dərəcədə mühüm rol oynadığı bildirilmişdir. Görüşlər zamanı nağdsız ödəniş alətlərindən istifadə vərdişlərinin təbliği məqsədilə videoçarxlar nümayiş etdirilmiş, bu istiqamətdə əsaslı rol oynayan internet resursları (saytlar) haqqında məlumatlar verilmiş və internet üzərindən ödənişlərin həyata keçirilməsi əyani şəkildə tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır. Bunlarla yanaşı, ödəniş alətlərinin üstünlükləri ilə bağlı təbliğat materialları, bukletlər dərc edilmiş və muxtar respublikada fəaliyyət göstərən idarə və müəssisələrdə ödəniş kartı istifadəçilərinə paylanılmışdır.

Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların sayı ötən ilin müvafiq dövründə 169 min 377 ədəd təşkil edirdisə, hazırda ödəniş kartlarının ümumi sayı 188 min 545 ədədə çatmış və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 min 168 ədəd artmışdır. Vətəndaşların, xüsusilə kənd yerlərində əməkhaqqı, pensiya və müavinət alan sakinlərin tamamilə ödəniş kartları vasitəsilə təmin edilməsinin təşkili daim diqqət mərkəzində saxlanılır.

Bütün bu tədbirlərin həyata keçirilməsi nağd pul dövriyyəsinin məhdudlaşdırılmasında, təsərrüfat subyektlərində maliyyə şəffaflığının təmin olunmasında mühüm rol oynayacaqdır.

**Elçin ƏLİYEV**
***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi***

# Dünyanı gözəllik xilas edəcəksə...

## *Və ya sahibkarlıq fəaliyyətində qadınların rolu haqqında bir neçə söz*

***"Bizim yolumuz islahatlar yoludur. Yolumuz bazar iqtisadiyyatının inkişaf etdirilməsi yoludur. Yolumuz sahibkarlığın inkişaf etdirilməsi yoludur".*** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin illər əvvəl söylədiyi bu fikirləri gündən-günə inkişaf edən ölkəmizin simasında daha aydın görür və hiss edirik. Müstəqilliyimizin bərpasından sonra digər inkişaf etmiş ölkələr kimi, Azərbaycanın da bazar iqtisadiyyatı yolunu tutması və mühüm nailiyyətlər əldə etməsi hər birimizə məlumdur. Müstəqil Azərbaycanın ən yaxın tarixdə keçdiyi bu inkişaf yolu dünya dövlətlərinin də diqqətindən yayınmamış, müxtəlif nüfuzlu qurum və təşkilatların hesabatlarında bu inkişaf öz əksini tapmışdır. Həqiqətən də, Azərbaycan dövləti milli iqtisadiyyatımızda özəl sektorun, bunun da nəticəsində sahibkarlığın inkişaf etdirilməsi üçün indiyədək çoxsaylı dövlət proqramlarının icrasını həyata keçirmiş, hərtərəfli qanunvericilik bazasının yaradılmasına nail olmuşdur. Görülən işlərin nəticəsidir ki, indi ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında böyük sahibkarlar ordusu yaranmış və bu sahibkarlar dövlətimizin iqtisadi dayaqlarının gücləndirilməsində mühüm rol oynamaqdadırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yerli sahibkarlarla görüşləri, onlara hərtərəfli dövlət dəstəyinin göstərilməsi ilə bağlı verdiyi tapşırıq və tövsiyələr, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısının alınması istiqamətində görülən tədbirlər özəl sektorun inkişafını şərtləndirməkdədir.

Mövzunun əsas hissəsinə keçməzdən əvvəl bu ilin fevral ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublika sahibkarları ilə keçirilən işgüzar görüşündən bəzi məqamları diqqətə çatdırmaq istərdik. Görüşdə sahibkarlığın əhəmiyyətini qeyd edən Ali Məclisin Sədri demişdir: ***"Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf xəttinin mühüm istiqamətlərindən birini də sahibkarlığın inkişafı təşkil edir. Sahibkarlığı inkişaf etdirmədən, kiçik və orta sahibkarlıq subyektlərini hərəkətə gətirmədən davamlı inkişafa nail olmaq mümkün deyil. Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın, kiçik və orta biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır. Bu sahəyə göstərilən maliyyə dəstəyinin həcmi ildən-ilə artırılmış, iş adamlarının fəaliyyətinə süni müdaxilələr aradan qaldırılmışdır. Antiinhisar tədbirlərinin gücləndirilməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilərək "bir pəncərə" prinsipi əsasında aparılması da öz müsbət təsirini göstərmişdir".***

2013-cü ildə Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payı 87 faiz təşkil etmişdir. Hazırda aqrar sektorda, sənaye, ticarət və nəqliyyatda qeyri-dövlət bölməsinin payı 85-99 faiz arası dəyişir ki, bu da çox yüksək göstəricidir. Sahibkarlığın inkişafının mühüm göstəricilərindən biri də daxili bazarın istehlak mallarına artan tələbatının ödənilməsidir. Əgər 1996-cı ildə muxtar respublikada 10 adda məhsul istehsal olunurdusa, bu gün 346 növ və 988 çeşiddə məhsul istehsal olunur. Yeni yaradılan müəssisələr əhalinin 106 növ ərzaq və 226 növ qeyri-ərzaq məhsullarına olan tələbatını tamamilə yerli istehsal hesabına ödəmək imkanına malikdirlər.

Göründüyü kimi, muxtar respublikada sahibkarlar hərtərəfli qayğı ilə əhatə olunmuşlar. Elə bunun nəticəsidir ki, ilbəil əldə olunan nailiyyətlərin sayı artır, müxtəlifprofilli yerli müəssisələr yaradılır, muxtar respublika öz tələbatını daxili istehsal hesabına ödəməyə çalışır. Və təbii ki, bu cür müsbət tendensiyalara nail olunmasında dövlət dəstəyi ilə yanaşı, sahibkarların öz fərdi fəallıqları, peşəkarlığın ildən-ilə artması, vətəndaşların özəl sektora yanaşma tərzi də mühüm rol oynayır. Bu sahədə kişilərlə bərabər, qadın sahibkarların da fəaliyyəti qeyd edilməlidir. Qeyd edək ki, aidiyyəti qurumlardan aldığımız məlumatlara görə, hazırda muxtar respublikamızda sahibkarlıq fəaliyyəti ilə məşğul olan qadınların sayı 11 nəfər təşkil edir. Fəaliyyət sahələrinə görə onlardan 7-si xidmət (qadın gözəllik salonu), 3-ü istehsal (çörəkbişirmə) sahələri, 1-i isə pərakəndə satışla məşğuldur. Bu gün dünyanın inkişaf etmiş ölkələrində biznes mühitinə kifayət qədər nüfuz edib nailiyyətlər qazanan sahibkar qadınlar var ki, bu qadınlar ictimai, mədəni həyatda da fəallıqları ilə seçilirlər. Buna görə də biznesdə qadınların rolunun əhəmiyyətli tərəfləri haqqında araşdırıb əldə etdiyimiz məlumatları, düşünürük ki, oxucularımızla (həm də qadın oxucularımızla) bölüşmək faydalı olardı.

Əvvəlcə qeyd edək ki, mövzuya heç də gender bərabərliyi baxımından yox, qadınların sırf biznesə təsir dairəsi baxımından yanaşmağa çalışacağıq. Bu gün çoxumuz belə düşünürük ki, biznes kişilər tərəfindən idarə edilir. Ancaq bunu unuduruq ki, istənilən biznesdə uğur qazanmağın əsas motivi qadınlardır. Məşhur Harvard Universiteti tədqiqatçılarının apardığı araşdırmalara görə, istənilən alış prosesində kişilər əldə edəcəyi məhsula, qadınlar isə məhsulla yanaşı, əlavə dəyərlərə də üstünlük verirlər. Məsələn, mağaza içərisində əgər kişi hər hansı bir geyim növü alarkən onun yalnız rənginə və ölçülərinə fikir verirsə, qadınlar həmin geyimin tikilişindən tutmuş keyfiyyəti və uzunömürlülüyünədək, yuyulma qaydalarından tutmuş mağaza daxilindəki ab-havaya, göstərilən xidmətədək hər detala diqqət edirlər. Bundan başqa, əgər qadın hər hansı bir məhsul alışına görə evdən çıxırsa, o, konkret olaraq, gedəcəyi mağazanı əvvəlcədən təyin edir; kişilərdə isə bu, adətən, xaotik olaraq formalaşır. Eyni zamanda qadınlar alış zamanı ən kiçik detallara belə, diqqət edirlər. Məsələn, alınacaq məhsulda kiçik bir qüsur varsa, bu qüsur onları fikirlərindən döndərə bilir, ancaq kişilərlə məsələ o qədər də qəliz olmur. Elə bütün bunlara görə kişilər yalnız məhsul, qadınlar isə brend almağa meyilli olurlar. Aparılan statistik təhlillərə görə, dünya üzərində istehlak xərclərinin 85 faizi qadınlar tərəfindən edilir. Dünyada "kişi sənayesi" hesab edilən avtomobil sənayesi belə, öz reklamlarının qadınlar tərəfindən seyr edilməsinə çalışır. Təsəvvür edin ki, 2008-2009-cu illərdə dünya avtomobil sənayesini böhran bürüyən zaman adını çəkmədiyim bir alman avtomobil firması digər rəqiblərini geridə qoyaraq satışlarını xeyli artırmış və yaxşı qazanc əldə edə bilmişdi. Sonralar şirkət tərəfindən aparılan araşdırmalara görə, sadə bir səbəb onları böhrandan xilas etmişdi: həmin avtomobil markası son 10 il ərzində Avropa və Rusiyada qadınlar tərəfindən ən çox sevilən avtomobil olmuşdur. Necə deyərlər, avtomobil alışlarında qadınların nəzər nöqtəsi mühərrikin gücündən də vacib faktor olmuşdur. Başqa bir misal. Kişilər üçün istehsal edilən bir çox fərdi aksesuarların qadın jurnallarında niyə yerləşdirildiyini düşünmüsünüzmü? Çünki həmin brendlər məhsullarının yalnız qadınlar tərəfindən bəyənildikdən sonra satışlarının artdığını gözəl bilirlər və bu strategiyanı heç vaxt unutmurlar. Deməli, buradan belə bir nəticəyə gəlmək mümkündür ki, sektordan asılı olmayaraq, məhsulunuz qadınlar tərəfindən sevilmirsə, işləriniz yaxşı getməyəcək.

Çox zaman qadınlar biznesə bu qədər yaxın və təsirli olduqlarının fərqinə varmırlar. İndi isə qadınların biznesdə əsl səlahiyyət sahibi olduqlarını – sahibkar olduqlarını düşünək. Məncə, mənzərə hamı üçün aydın olacaq. Deməli, bu sahədə maariflənməyə ehtiyac var. Qadınlarımız sahibkarlıq ruhunu daha dərindən hiss etməlidirlər. Çünki Azərbaycan qadını digər sahələrdə olduğu kimi, özəl sektorda da yüksək zirvələr fəth edə bilər. Necə deyərlər, dünyanı gözəllik xilas edəcəksə, sahibkarlıq fəaliyyətində də qadınlarımızı çox görməliyik.

**Səbuhi HƏSƏNOV**

## Mədəniyyət









*Hörmətli oxucular! Naxçıvanın muxtariyyət dövründə diyarımızda mədəniyyətin inkişafı istiqamətində görülən işlərdən bəhs edən növbəti yazını təqdim edirik. Qəzetin 12 aprel tarixli sayında dərc olunan məqalədə 1924-cü ildən müstəqillik illərinə qədər bu sahədə həyata keçirilən tədbirlərdən söhbət açmışdıq. Bu yazıda isə müstəqillik illərində mədəniyyətin inkişafına göstərilən dövlət qayğısından, bu sahənin uğurlarından bəhs edəcəyik.*

*“Muxtariyyət ili”*

# Naxçıvan mədəniyyəti muxtariyyət illərində

**1993-2003-cü illər.** Bu illərdə Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə, o cümlədən mədəniyyətin və incəsənətin inkişafında əldə edilən uğurların əsasında ulu öndər Heydər Əliyevin təməlini qoyduğu inkişaf və tərəqqi strategiyası dayanır.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında mədəniyyət sahəsində həyata keçirilən mühüm işlərdən biri yeni muzeylərin yaradılması, mövcud muzeylərin zövqlə yenidən qurulması olmuşdur. Bir sıra muzeylər üçün yeni binalar inşa olunmuş, muzeylərimizin bəziləri yeni binalara köçürülmüş, təmir edilmiş, onların ekspozisiyaları yenidən qurulmuşdur. Bu illərdə Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi, C.Məmmədquluzadənin ev-muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Bəhruz Kəngərli Muzeyi, Açıq Səma Altında Muzey, Xatirə Muzeyi fəaliyyətə başlamışdır. C.Məmmədquluzadənin ev-muzeyinin və Bəhruz Kəngərli Muzeyinin açılışında ulu öndər Heydər Əliyev iştirak etmiş və geniş nitq söyləmişdir.

1996-cı ilin oktyabrında Naxçıvanda böyük romantik şair və dramaturq Hüseyn Cavidin məzarüstü məqbərəsinin açılışı olmuşdur. Bu təntənəli mərasimdə geniş nitq söyləyən ulu öndər Heydər Əliyev sənətkara yüksək qiymət vermişdir. Bu təkcə böyük sənətkara deyil, Cavidlər ailəsinə ucaldılan abidədir.

Naxçıvan Dövlət Musiqili Dram Teatrı və Naxçıvan Dövlət Filarmoniyasının qardaş Türkiyə Respublikasına və İran İslam Respublikasına səfərləri təşkil edilmişdir.

2001-ci ildə “Şərur” Xalq Yallı Ansamblı Misirdə keçirilən XI Beynəlxalq Folklor Festivalında iştirak etmişdir.

Bu illərdə muxtar respublikanın bir sıra bölgələrində uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin yaradılmasına başlanılmışdır. Şərur rayonunun Aralıq kəndində, Sədərək rayonunda uşaq musiqi məktəbləri yaradılmışdır.

Naxçıvan torpağının yetişdirdiyi görkəmli şəxsiyyətlərin adının əbədiləşdirilməsi üçün dəyərli işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında” 15 fevral 2001-ci il tarixli Sərəncamı görkəmli rəssamın adının əbədiləşdirilməsi üçün mühüm işlərin görülməsinə səbəb olmuşdur.

**2003-2013-cü illər.** *“Mədəniyyəti inkişaf etdirmək milli ruhu yaşatmaq deməkdir”,* – deyən ulu öndərin mədəniyyət siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı tərəfindən bu illərdə mədəniyyət və turizm sahələrinə dair 200-dən çox fərman və sərəncam imzalanması bunun bariz göstəricisidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 fevral 2006-cı il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi yaradılmışdır. Ümummilli liderimizin mədəniyyət və turizm sahəsində hazırladığı inkişaf strategiyası Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mədəniyyət və incəsənət, turizm sahələrinə qayğısı ulu öndər Heydər Əliyev ideyalarının həyata keçirilməsinin bariz ifadəsidir. Muxtar respublikada geniş vüsət almış abadlıq və quruculuq tədbirləri mədəniyyət, incəsənət və turizm sahələrini də əhatə etmişdir. Qədim diyarımızda yeni mədəniyyət müəssisələri, muzeylər, kitabxanalar, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri, teatrlar, turizm obyektləri üçün yeni binalar inşa olunmuş və ya əsaslı təmir edilərək istifadəyə verilmişdir. Mədəniyyət müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsi sahəsində görülən işlər bu gün də uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında”, “Nuh Peyğəmbərin Naxçıvan şəhərində məzarüstü abidəsinin bərpa edilməsi haqqında”, “Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında” və başqa çoxsaylı sərəncamları tarixi abidələrimizə, maddi-mənəvi dəyərlərimizə, inanc yerlərimizə diqqət və qayğının ən gözəl nümunələridir. Bu gün Naxçıvan Muxtar Respublikasında 1200-dən çox tarix və mədəniyyət abidəsi qeydə alınmışdır.

Əgər 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey vardısa, hazırda qədim diyarımızda 24 müxtəlifprofilli muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. Muzeylərdən 12-si Naxçıvan şəhərində yerləşir.

Hazırda muxtar respublikanın muzeylərində 110 mindən çox maddi-mədəniyyət nümunəsi qorunub mühafizə olunur.

2010-cu ildə muxtar respublikada 2 muzey yaradılmışdır. Ali Məclis Sədrinin 9 fevral 2010-cu il tarixli Sərəncamı ilə yaradılan Şahtaxtinskilər Muzeyi, 23 oktyabr 2010-cu il tarixli Sərəncamı ilə yaradılan “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi qədim yurdun görkəmli şəxsiyyətlərinə ehtiramın ifadəsidir. Muxtar respublikamızda dəniz səviyyəsindən 3700 metr yüksəklikdə Gəmiqaya muzeyi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında”, 28 iyun 2013-cü il tarixli “Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında”, 11 fevral 2014-cü il tarixli “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” sərəncamları bu sahədə aparılan işlərin ardıcıllığını və davam etdirildiyini göstərir.

Qədim diyarda mədəniyyətin və incəsənətin bütün sahələri qayğı ilə əhatə olunmuşdur. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 40 illiyi dövlət səviyyəsində qeyd edilmişdir. 2013-cü ildə isə Rəssamlar Birliyinin yeni binası və B.Kəngərli adına Sərgi Salonu istifadəyə verilmişdir.

Bu illərdə Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının fəaliyyətində də canlanma müşahidə olunmuşdur. Bu dövrdə Bəstəkarlar Təşkilatının 30 illiyi dövlət səviyyəsində qeyd edilmiş, təşkilatın hesabat konserti olmuşdur.

Teatrlarımıza dövlət qayğısını muxtar respublikamızda fəaliyyət göstərən sənət ocaqlarının timsalında aydın görmək mümkündür. Naxçıvanın mədəni həyatında mühüm rol oynayan teatrlarımız yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Muxtar respublikamızda teatrın zəngin ənənələrinin qorunması, milli teatr sənətinin davamlı inkişafının təmin edilməsi, teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyevin 31 yanvar 2008-ci il tarixli Sərəncamı ilə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illiyi təntənə ilə qeyd edilmişdir. 2012-ci il fevralın 3-də teatrın binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı ölkəmizdə fəaliyyət göstərən 2 uşaq teatrından biri kimi balaca tamaşaçıların sevimli ünvanına çevrilmişdir.

Naxçıvan Dövlət Filarmoniyasının fəaliyyəti də yaddaqalan mədəni hadisələrlə zəngindir. Dövlət qayğısı sayəsində filarmoniyanın maddi-texniki bazası möhkəmləndirilmiş, filarmoniya üçün səs avadanlıqları, musiqi alətləri, musiqi ədəbiyyatı, geyimlər alınmışdır. Bu illərdə Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivləri Türkiyə Respublikasında, Rusiya Federasiyasında, Türkmənistan Respublikasında keçirilən müxtəlif tədbirlərdə uğurla çıxış etmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 10 yanvar 2012-ci il tarixli “Naxçıvan Dövlət Filarmoniyası Estrada Orkestrinin yaradılması haqqında” Sərəncamından sonra Estrada Orkestrinin yaradılması başa çatmış və orkestrin repertuar zənginliyinə diqqət artırılmış, kollektiv üçün 20 dəst geyim alınmışdır. 2012-ci ildə Respublika Günü ərəfəsində Naxçıvan teatrı ilə filarmoniya kollektivinin Ü.Hacıbəylinin “Koroğlu” operası əsasında birgə hazırladığı kompozisiya mədəniyyət hadisəsi kimi dəyərləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 aprel 2010-cu il tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyası musiqi mədəniyyətimizdə mühüm hadisədir. Qeyd edək ki, filarmoniyanın xalq çalğı alətləri, kamera orkestrləri, mahnı və rəqs ansamblı, xor kollektivi istedadlı uşaqları öz ətrafında birləşdirmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə göstərilən qayğı və diqqəti xüsusilə qeyd etmək lazımdır. Muxtar respublikada gedən quruculuq işləri bu mədəniyyət ocaqlarını da əhatə etmiş, son illərdə 20-dən çox uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün yeni binalar tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 7 fevral 2009-cu il tarixli Sərəncamı xalq yaradıcılığının inkişafında yeni üfüqlər açmışdır. Bu sərəncam həm də zəngin xalq yaradıcılığı ənənələrini yaşatmaq, gələcək nəsillərə çatdırmaq baxımından dəyərlidir. Bu gün muxtar respublikada xalq yaradıcılığına qayğı öz bəhrəsini verməkdədir. Muxtar respublikada Aşıqlar Birliyi yaradılmışdır. 2009-cu ildən başlayaraq Novruz bayramında xalq yaradıcılığı günləri keçirilir. Bu şənliklərdə xalq sənətkarlarının əl işləri, Azərbaycan xalqının tarixini özündə yaşadan müxtəlif əşyalar, muzey eksponatları, milli mətbəx nümunələri nümayiş etdirilir, xalq oyunlarını və musiqisini, yallıları, xalq rəqslərini, toy adətlərini, aşıq musiqisini yaşadan folklor kollektivləri çıxış edirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 aprel 2009-cu il tarixli Sərəncamı ilə yaradılan “Naxçıvan mətbəxi” Kulinariya Mərkəzi xalq yaradıcılığının ən qədim və zəngin sahələrindən olan kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və təbliğ olunması, tanıdılması sahəsində müəyyən işlər həyata keçirmişdir. Bu dövrdə mərkəzin əməkdaşları Çin Xalq Respublikası, Türkiyə Respublikasında keçirilən tədbir və festivallarda iştirak etmiş, medal və diplomlara layiq görülmüşlər.

Müstəqillik illərində muxtar respublikada gedən mədəni yüksəliş kitabxanalara da öz təsirini göstərmişdir. Muxtar respublikanın bölgələrində inşa olunan 100-dən çox kənd mərkəzində kitabxanalar üçün nümunəvi şərait yaradılmışdır. 2005-ci ildən başlayaraq Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli Sərəncamı ilə nəşr olunan latın qrafikalı 400 mindən çox kitab kitabxanalara hədiyyə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 aprel 2012-ci il tarixli “Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamına uyğun olaraq, burada Elektron kitabxana yaradılmışdır.

Yüksək zövq və nəfis tərtibatla nəşr olunmuş “Naxçıvan teatrının salnaməsi”, “Naxçıvan milli geyimləri”, “Naxçıvan tikmələri”, “Naxçıvan mətbəxi”, “Azərbaycan xalçaları: Naxçıvan qrupu”, “Naxçıvan xalçaçıları” və başqa kitablar mədəniyyətimizin, incəsənətimizin təbliği baxımından olduqca dəyərli nəşrlərdir.

Naxçıvan torpağının yetişdirdiyi görkəmli şəxsiyyətlərin adının əbədiləşdirilməsi və yubileylərinin keçirilməsi istiqamətində də mühüm işlər görülmüşdür. M.T.Sidqi, M.Şahtaxtlı, B.Şahtaxtinski, H.Cavid, Ə.Cavid, C.Məmmədquluzadə, B.Kəngərli, M.S.Ordubadi, İ.Səfərli, M.Arazın yubileylərinin yüksək səviyyədə qeyd olunması Naxçıvanda böyük mədəni hadisələr kimi dəyərləndirilməlidir.

2009-cu il oktyabrın 14-də Bakıda keçirilən İslam ölkələrinin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvanın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması muxtar respublikamızın nüfuzunun və ona göstərilən etimadın nəticəsidir.

Mədəniyyətin inkişaf etdirilməsi həm də qədim diyarımızın regionda tanıdılması və mədəni mərkəz rolu oynamasını şərtləndirir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: ***“Xalqımızın incəsənət, mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir”.***

**Əli RZAYEV**
***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı***

## Şair-dramaturqun yaradıcılığında Vətən və vətəndaşlıq mövzusunda tədbir keçirilib

Dünən Naxçıvan Müəllimlər İnstitutunda Naxcıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr edilmiş tədbirlər silsiləsindən “Şair Asim Yadigarın yaradıcılığında Vətən və vətəndaşlıq” mövzusunda tədbir keçirilmişdir.



Tədbiri Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli açaraq tədbirin mahiyyətindən danışmışdır.

Naxçıvan Müəllimlər İnstitutunun müəllimi Həsənəli Eyvazlı “Asim Yadigarın yaradıcılığında Vətən və vətəndaşlıq” mövzusunda çıxış edərək bildirmişdir ki, müasir dövrdə aktual mövzulardan olan vətənpərvərlik Naxçıvan ədəbi mühitində hər zaman öndə olmuşdur. Bu ədəbi mühitdə öz sözü və dəstxətti ilə seçilən şair-dramaturq Asim Yadigar yaradıcılığında Vətən amilinə böyük yer verən şairlərimizdəndir. Doğma el-obasına böyük sevgi ilə yanaşan, onun gözəlliklərini özünəməxsus üslubda vəsf edən şair həm də bu şeirlərin dili ilə gənc nəslin təlim-tərbiyəsində vətənpərvərlik hissinin aşılanmasını əsas amil kimi ifadə edir. Dörd dram, on səkkiz poema və çoxsaylı şeirlərin müəllifi olan Asim Yadigar “Darıxan məzarlar”, “Hücum əmri ver mənə”, “Döyüş havaları çaldırmalıyıq” və digər bu kimi şeirləri ilə vətəndaşlıq amilini hər zaman ön planda saxlamağı bacarır. Qeyd edilmişdir ki, doğma Azərbaycan, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarı Asim Yadigarın ilham mənbəyidir. Muxtar respublikamızın bugünkü inkişafından ruhlanan şair yaradıcılığında bu gözəllikləri vəsf etməklə yanaşı, həm də əsl vətəndaşlıq münasibətini ortaya qoyur.

Naxçıvan Müəllimlər İnstitutunun müəllimlərindən Sədaqət Həsənova, Əbülfəz Əzimli, Süsən Kərimli çıxış edərək şairin yaradıcılığının məziyyətlərindən bəhs etmişlər.

Sonra ali təhsil ocağının tələbələrinin ifasında şair Asim Yadigarın vətənpərvərlik mövzusunda yazdığı şeirlər bədii qiraət olunmuşdur.

Tədbirin “Şairlə üz-üzə” hissəsində Asim Yadigar tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırmışdır.

## “İkinci səs” əsəri tamaşaya hazırlanır

Babək Rayon Xalq Teatrı yarandığı gündən hazırladığı əsərlərlə tamaşaçıların rəğbətini qazanıb. Repertuarını zənginləşdirməyə çalışan kollektiv bu günlərdə Xalq şairi Bəxtiyar Vahabzadənin “İkinci səs” əsərini yeni quruluşda tamaşaya hazırlayır. Ailə-məişət mövzusunda olan əsərdə tamaşaçıya mənəvi təmizlik, vəzifə borcuna məsuliyyət, insan ləyaqətinin uca tutulması kimi dəyərlər aşılanır.

Tamaşanın rejissoru Yusif Əliyev, musiqi tərtibatçısı Səyyad Məmmədov, rəssamı Əli Səfərovdur. Rollarda Firdovsi Səfərov, Şölə Novruzbəyli, Vüsalə İsmayılova, Stella Babayeva, İsmayıl Qurbanov və başqaları çıxış edirlər.

**Sona MİRZƏYEVA**

*Bakı şəhərində fəaliyyət göstərən klinika və xəstəxanaların muxtar respublikamızda ezamiyyətdə olan bir qrup heyəti Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş humanitar aksiyaları davam etdirir.*

## Səhiyyə müəssisələrində humanitar aksiyalar davam edir

Hazırda Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanası ilə yanaşı, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin cərrah və əməliyyat tibb bacılarından ibarət heyəti də muxtar respublika əhalisinə tibbi xidmətlər göstərir, səhiyyə maarifi işləri aparırlar. Mərkəzin yüksəkixtisaslı həkimlərindən Emil Hüseynov, Məhərrəm Termetov, Sevinc Salmanova və başqaları Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 60 nəfəri müayinədən keçirmiş, 10 nəfər üzərində göz əməliyyatı aparmışlar. Əməliyyatlar davam etdiriləcəkdir.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşları Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində, Mərkəzi Uşaq Xəstəxanasında, Naxçıvan Şəhər Poliklinikasında, Doğum Mərkəzində, Psixi Xəstəliklər Dispanserində cərrahiyyə, pediatriya, terapiya, ginekologiya, nevrologiya və psixiatriya, kardiologiyanın aktual problemlərinə dair mühazirələr oxumuş, dinləyiciləri maraqlandıran sualları cavablandırmışlar.

İnstitutun prorektoru, tibb elmləri doktoru Şahin Əliyev humanitar aksiya çərçivəsində yerli həkimlərlə birgə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində laparoskopik əməliyyatlar aparmışdır.

Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasından gəlmiş 20 nəfərdən ibarət yüksəkixtisaslı həkim heyəti Ordubad rayonunda keçirdiyi humanitar aksiyanın ikinci günü də səmərəli fəaliyyət göstərmiş, gün ərzində 652 pasiyentə profilaktik tibbi xidmət göstərmişdir. Cərrahi müdaxiləyə ehtiyacı olan 29 nəfər üzərində əməliyyat aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Məktəblilər təbiətə zərərli tullantıları toplayıblar

Xəbər verdiyimiz kimi, bu il fevral ayının 15-dən etibarən Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası muxtar respublikanın 90 illik yubiley tədbirləri çərçivəsində "Təbiətə məktəbli töhfəsi" adlı aksiyaya başlamışdır. Aksiya aprel ayının 20-dək davam etdirilmişdir. Dünən sözügedən aksiyaya yekun vurulmuş və bu münasibətlə keçirilən tədbiri kitabxananın direktoru Kamal Axundov açaraq çıxış etmişdir.

Sonra kitabxananın şöbə müdiri Naibə Abbasova bildirmişdir ki, ötən iki ay ərzində aksiyada 7 kitabxana, 30 tam orta məktəb, bütövlükdə, 8 min nəfər məktəbli iştirak etmişdir. Aksiyada hər biri ən azı 20 kvadratmetr ərazini zəhərləmək gücündə olan 12 min ədəd təbiətə zərərli olan batareya toplanaraq məhv edilmək üçün aksiya komissiyasına təhvil verilmişdir. Tullantıya çevrilən batareyalarda müxtəlif ağır metallar olur ki, onlar da hətta kiçik miqdarda belə, insan sağlamlığına ziyan vurur. Bunlar sink, manqan, kadmium, nikel, civə və başqalarıdır. Batareyalar atılandan sonra korroziyaya uğrayır, tərkibindəki ağır metallar torpağa və qrunt sularına keçir. Qrunt sularında olan bu metallar çay, göl və ya artezian sularına düşə bilər ki, həmin sulardan da içməli su kimi istifadə olunur.

Sonda toplanan batareyalar məhv edilməsi üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təhvil verilmişdir.

Qeyd edək ki, aksiyada fəal iştirak edən şəhər və rayon kitabxanalarının balaca oxucuları və məktəblilər hədiyyələr, diplomlar və fəxri fərmanlarla mükafatlandırılmışlar.

**Xəbərlər şöbəsi**

*Yeni nəşrlər*

## "Qədim Ordubad"

***Dünyada çox az şəhərlər var ki, siz ora gedərkən özünüzü keçmişin sehri, aurası içində hesab edə bilərsiniz. Azərbaycanda paytaxt Bakıdakı İçəri şəhəri, Şəki şəhərini, İsmayıllı rayonundakı Lahıcı da nəzərə alsaq, 4 bu cür məkan var ki, bunların sırasında Ordubad xüsusi yer tutur. Burada küçələrlə addımlayarkən, həyətlərə daxil olarkən, dağlara qalxarkən, düzlərə enərkən atdığın hər addımda özünü keçmişə səyahət edirmiş kimi hiss edirsən. Bu mənada dağıyla, daşıyla, evlərinin tikiliş üslubu ilə, küçələri ilə, tarixi məhəllələri ilə, çinarları ilə bir tarixdir Ordubad.***




Qədim sivilizasiyanın əsas mərkəzlərindən biri hesab edilən, müasir inkişaf mənzərəsi ilə seçilən Ordubadın adı çəkiləndə, təbii ki, əvvəlcə Gəmiqaya yada düşür. Ordubadın tarixi Gəmiqayadan başlandığı kimi, Ordubadın tarixinin əsaslı tədqiqi də Gəmiqayadan, daha dəqiq desək, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncamından başlayır. Ordubaddakı Gəmiqaya abidələrini, I Plovdağ, Sumbatan yaşayış yerlərini, Xaraba Gilan şəhər yerini, I və II Plovdağ, Xalı-Keşan, Mərdan gölü, Dəlmə, Muncuqlu təpə nekropollarını göz önünə gətirdikdə buranın qədim sivilizasiyanın beşiklərindən biri olduğu, şübhəsiz ki, təsdiqlənir.

Uzunmüddətli tarixi, arxeoloji, etnoqrafik tədqiqatların nəticəsi olaraq meydana çıxan "Qədim Ordubad" ("The Ancient Ordubad") kitabı da məhz bu tarixi gələcək nəsillərə çatdıracaq ən dəyərli əsərlərdən biridir. AMEA Naxçıvan Bölməsinin Elmi Şurasının qərarı ilə çapdan çıxan, tarixçilərimizin Naxçıvanın 90 illik yubileyinə hədiyyəsi hesab edə biləcəyimiz kitabın müəllifləri AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə, tarix elmləri doktoru Abbas Seyidov və tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimlidir. Müəlliflərin Naxçıvanın tarixi, arxeologiyası və etnoqrafiyası ilə bağlı uzunmüddətli elmi tədqiqatlarının nəticəsi olan kitabın Azərbaycan və ingilis dillərində çapdan çıxması xüsusi əhəmiyyət daşıyır. Əsər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixinə və etnoqrafiyasına dair ciddi faktlar əsasında yazılıb.

Elmi redaktoru akademik İsmayıl Hacıyev, elmi məsləhətçisi və ön söz müəllifi akademik İsa Həbibbəyli, rəyçiləri AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Əliyev və tarix elmləri doktoru, professor Fəxrəddin Səfərli olan kitab Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyində çap edilib.

Kitab "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 26 aprel 2001-ci il tarixli Sərəncamı ilə başlayır. Əsərin "Giriş" hissəsində müəlliflər XIX əsrin sonları və XX əsrin əvvəllərindən başlayaraq Ordubad abidələrinin tədqiqi tarixinə nəzər salırlar. Əsərdə XX əsrin 70-80-ci illərində Ordubad ərazisindəki müxtəlif tarixi abidələrin öyrənilməsi istiqamətində atılan addımlara, təşkil olunan ekspedisiyaların işinə xüsusi yer verilir. Sadalanan faktlar bir daha onu göstərir ki, hələ o zaman milli mədəniyyətimizin, tariximizin böyük hamisi ümummilli lider Heydər Əliyev Ordubadın tarixinin öyrənilməsinə xüsusi diqqət yetirib, tarixi araşdırmaların aparılmasını müxtəlif formalarda dəstəkləyib və buna şərait yaradılmasını təmin edib. Kitabda müstəqillik illərində də Ordubadın qədim tarixinin öyrənilməsinin ümummilli liderin adı ilə bağlılığı xüsusi vurğulanaraq yazılıb: "İstər 2001, istərsə də 2002-ci ildə Naxçıvan Muxtar Respublikasında səfərdə olan zaman Heydər Əliyevin Gəmiqaya abidəsinə diqqət yetirməsi bu abidənin nə qədər böyük tarixi əhəmiyyət kəsb etdiyini göstərir. Bu qayğı ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 26 aprel 2001-ci il tarixdə "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncam imzalamışdır". "Giriş" hissədə 2005-ci ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması, pasportlaşdırılması işinin təşkili və bu istiqamətdə Ordubadda görülən işlərdən də ətraflı bəhs edilir.

Əsərin "Yaşayış yerləri" adlanan birinci bölməsində Birinci Plovdağ yaşayış yeri, burada aparılan tədqiqatlar, aşkarlanan müxtəlifxarakterli tikililər, abidələr, maddi-mədəniyyət nümunələri, əmək alətləri (dən daşları, sürtgəclər, əl çapacaqları, daş baltalar), ocaq qalıqları, saxsı qablar, təsərrüfat quyuları və onların xarakterik xüsusiyyətləri haqqında ətraflı məlumat verilir, fotoşəkillər təqdim edilir. Yuxarıda da qeyd etdiyimiz kimi, Ordubad deyərkən ilk olaraq xatırlanan ərazi Gəmiqaya abidələri və bu abidələr üzərindəki təsvirlərdir. Kitabın ön söz müəllifinin də xüsusi olaraq vurğuladığı kimi, Gəmiqayanı "Naxçıvanın Qobustanı" hesab etmək olar. "Yaşayış yerləri" bölməsində "Gəmiqaya abidələri" haqqında da geniş məlumat verilir, təsvirlər və simvollar, onların mənaları, inanc sistemi, ərazidəki toponimlərin mənaları izah edilir. Ümummilli lider Heydər Əliyevin Gəmiqaya haqqında müdrik kəlamının qeyd olunduğu bu hissədə yazılır: "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bir kəlamına diqqət yetirək: "…Bu, bildiyimiz kimi, həm təbiətin böyük bir abidəsidir, eyni zamanda insan yaradıcılığının abidəsidir. Bu abidə Azərbaycanındır. Azərbaycanın tarixini əks etdirən abidədir…" Doğrudan da, Gəmiqaya öz sirlərini tədqiqatçılara açdıqca onun başdan-başa Azərbaycan türkünün qədim abidəsi olması inkaredilməz olur".

Son illərdə ciddi arxeoloji tədqiqatların aparıldığı Sumbatan yaşayış yeri də tariximizin ən dərin qatlarından xəbər verir. Xaraba Gilan şəhər yeri isə, şəksiz ki, həm qədim dövr, həm də orta əsrlər dövrü tariximizin ən zəngin sübutlarını özündə yaşadan bir məkandır. Kitabda Xaraba Gilan ərazisi, buradakı şəhərin müdafiə sistemi, yaşayış evləri, memorial abidələr, kəhrizlər, aşkarlanan maddi-mədəniyyət nümunələri, məişət əşyaları və onların xüsusiyyətlərinin təhlili xüsusilə maraq doğurur.

"Qədim Ordubad" kitabında rayon ərazisində yerləşən qəbir abidələrinin xarakterik xüsusiyyətləri də geniş təhlil olunub. "Qəbir abidələri" bölməsində I və II Plovdağ, Xalı-Keşan, Mərdan gölü, Dəlmə, Muncuqlu təpə nekropolları, bu ərazilərdə aşkarlanan məişət əşyaları, keramika nümunələri, silahlar, bəzək əşyaları, dəfn adətləri haqqında zəngin məlumatlar öz əksini tapıb.

"Qədim Ordubad" kitabı bir də ona görə əhəmiyyətlidir ki, o təkcə indiyə qədər aparılan fundamental tədqiqatların nəticələrini əks etdirmir, həm də "Tədqiqatçılarını gözləyən abidələr" bölməsində onlarla belə abidə haqqında məlumat verir və gələcək tədqiqatlar üçün mayak rolunu oynayır. Baş Dizə abidəsi, Qaratəpə kurqanı, Ucadivar və Qumluq, Gənzə, İlikliqaya, Kilid yaşayış yerləri, Vənənd, Der, Aza kəndləri, Bal dərəsi, Qoşa Dizə, Babək, Düylün, Piləpan, Dəlmə, Əfqan, Sınağan qalaları, Biləv körpüsü, Biləv, Malik İbrahim, Nurgədik, Köhnə Kotam, Kilid, Köçəri qəbiristanlıqları, Düylün, Qumluq və Dəmyələr, Dəmirçilər, Gəmiqaya, Tillək, İlikliqaya nekropolları, Darkənd hasarları və sair abidələr məhz tədqiqini və tədqiqatçılarını gözləyən abidələrdir.

Kitabın "Etnoqrafik araşdırmalar" bölməsində Ordubadda yaşayan əhalinin etnoqrafiyası, maddi və mənəvi mədəniyyəti haqqında geniş təhlillər aparılıb.

***Yuxarıda da qeyd etdiyimiz kimi, əsərin bütün hissələri Azərbaycan dili ilə yanaşı, ingilis dilinə də tərcümə edilib və kitabda öz əksini tapıb. Həmçinin bütün abidələrə və tapıntılara aid maraqlı fotoşəkillər təqdim edilib. Əsərin yazılması zamanı Azərbaycan, türk, rus və ingilis dillərində müxtəlif ədəbiyyatlardan, çoxillik arxeoloji və etnoqrafik tədqiqatların nəticələrindən istifadə edilib.***

✍ **Elnur KƏLBİZADƏ**

Aprel ayının 24-də Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Babək rayonunun ümumtəhsil məktəbləri arasında şahmat yarışının II mərhələsi keçirilmişdir. Babək Rayon İcra Hakimiyyəti və rayon Təhsil Şöbəsinin tədbirlər planına əsasən təşkil olunan yarışda 6 məktəbin komandası iştirak etmişdir.

## Babək rayonunda idman yarışları

Yarış başlanmazdan əvvəl rayon Təhsil Şöbəsinin məsləhətçisi Rasim Eyvazov çıxış edərək bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü Babək rayonunda silsilə tədbirlərlə geniş qeyd olunur. Zonalarda start götürən şahmat yarışı da bu tədbirlərin davamıdır.

Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin baş təlimatçısı Zakir Quliyev yarışın qaydaları barədə məlumat vermişdir.

Yarışın nəticələrinə görə, Hacıvar kənd tam orta məktəbinin komandası birinci, Güznüt kənd tam orta məktəbinin komandası ikinci, Yarımca kənd tam orta məktəbinin komandası üçüncü olmuşdur.

Qalib komanda mayın 5-də keçiriləcək final mərhələsində iştirak edəcəkdir.

Həmin gün adıçəkilən tədbirlər planına əsasən, rayonun ümumtəhsil məktəbləri arasında mini-futbol yarışı keçirilmişdir. Kərimbəyli kənd tam orta məktəbinin komandası rəqiblərini məğlub edərək mayın 8-də keçiriləcək final mərhələsində iştirak etmək hüququ qazanmışdır.

## Şəhər birinciliyinə yekun vurulub

Yüngül atletika üzrə Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şəhər birinciliyinə yekun vurulub. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və "Rabitəçi" idman klubunun birgə təşkil etdiyi birincilikdə 17 məktəbin şagirdləri qüvvələrini sınayıblar. Qızlar və oğlanlardan ibarət olan komandalar 6 nəfərdən təşkil olunub və onlar birincilik uğrunda müəyyən edilmiş məsafələri hamıdan tez qaçmağa çalışıblar. Ümumilikdə, 100-ə yaxın gənc atletin mübarizə apardığı birincilik reqlamentə əsasən, 100, 200 və 400 metr məsafələrə qaçış üzrə təşkil olunub. Naxçıvan şəhərindəki 9 nömrəli tam orta məktəbin şagirdləri hamıdan tez finiş xəttinə çataraq turnirin qalibi adını qazanıblar. Yarışı 3 nömrəli tam orta məktəbin komandası ikinci, 16 nömrəli tam orta məktəbin komandası isə üçüncü başa vurub.

**Xəbərlər şöbəsi**

### *Allah rəhmət eləsin*

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti Əhməd Əhmədova, qardaşı
**ABBASIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyinin kollektivi Məhəbbət Mirzəyevaya, qardaşı
**XUDAQULUNUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Həsən, İntizam, Baxşəli, Şükür, İsa Tarverdiyev qardaşları Əvəz Əhmədova, əzizi
**ABBASIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İlqar Yaqubov Əhməd Əhmədova, qardaşı
**ABBASIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 381